# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 372** **Bakı şəhəri, 3 sentyabr 2018-ci il**

**"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1139-VQD nömrəli Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə**

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1139-VQD nömrəli Qanununun tətbiqi və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli 126 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 8 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 69) ilə təsdiq edilmiş "Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissə ləğv edilsin;

1.2. 4-cü hissədə "Agentliyin büdcədənkənar xüsusi vəsaitlər üzrə" sözləri "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin (bundan sonra - Agentlik)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 9 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 70; 2017, № 12 (II kitab), maddə 2509) ilə təsdiq edilmiş "Nüsxələrinə nəzarət markası yapışdırılması nəzərdə tutulan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "2.2-ci" sözü "2.3-cü" sözü ilə və "Müəllif Hüquqları" sözləri "Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qaydalara əlavənin 11-ci sütununda "Müəllif Hüquqları" sözləri "Azərbaycan Respublikasının Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 337; 2017, № 12 (II kitab), maddə 2508) ilə təsdiq edilmiş "Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi Qaydaları"nın 2.1-ci bəndində və həmin Qaydalara əlavə - "Beynəlxalq standart eyniləşdirmə nömrəsinin verilməsi haqqında ərizə"də "Müəllif Hüquqları" sözləri "Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 744; 2015, № 7, maddə 882) ilə təsdiq edilmiş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.3-cü bənddə "Müəllif Hüquqları Agentliyi" sözləri "Əqli Mülkiyyət Agentliyi (bundan sonra - Agentlik)" sözləri ilə əvəz edilsin;

4.2. 1.4-cü, 2.5-ci bəndlərdə, 5.3.7-ci yarımbənddən sonra verilmiş "Qeyd"də, 5.14-cü və 5.16-cı bəndlərdə ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

4.3. həmin Qaydalara 2 nömrəli əlavə - "Nəzarət markasının nümunəsi"ndə "Müəllif Hüquqları" sözləri "Əqli Mülkiyyət" sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***